Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqqabısını geyindiyi, saçlarını daradığı, təmizləndiyi zaman və bütün işlərində sağla başlamağı sevərdi

Möminlərin anası Aişədən (Allah ondan razı olsun) rəvayət edilir ki, o belə demişdir: "Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqqabısını geyindiyi, saçlarını daradığı, təmizləndiyi zaman və bütün işlərində sağla başlamağı sevərdi".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) şərəfli işlərdə sağla başlamağı xoşlayar və üstün tutardı, o cümlədən: ayaqqabısını geyinməyə sağ ayaqla başlayır, saç və saqqallara baxım, daramaq və yağlamaqda sağla başlayır, dəstəmazda isə sağ əli və ayağı soldan əvvəl yuyardı.

https://sunnah.global/hadeeth/az/show/3018